**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərinin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

Mərkəzi Seçki Komissiyası özünün 7 oktyabr 2009-cu il tarixli 25/103 saylı qərarına əsasən Azərbaycan Respublikasında 23 dekabr 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərində ölkə üzrə seçici siyahısına daxil edilmiş 4.612.727 seçicidən 1.478.186 nəfərin, yəni seçicilərin ümumi sayının 32,04 %-nin səsvermədə iştirak etdiyini və bunun nəticəsində də seçkilərin baş tutduğunu ***bəyan edərək;***

seçkilərin hazırlanması və keçirilməsi dövründə Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının norma və tələblərinə riayət olunduğunu və

a) qeydə alınmış 30.954 bələdiyyə üzvlüyünə namizədə təşviqat dövründə bərabər şəraitin yaradıldığını,

b) səsvermə günü də daxil olmaqla seçki dövrü baş verən bütün çatışmazlıqların dərhal aradan qaldırıldığını,

c) seçkilərin 118 seçki dairəsi və 4.813 seçki məntəqəsi üzrə keçirildiyini və 15.682 bələdiyyə üzvünün seçilməsi üçün 1.718 bələdiyyəni əhatə etdiyini ***qeyd edərək;***

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində – Dağlıq Qarabağ regionunda (Xankəndi şəhəri, Şuşa, Xocalı, Əsgəran, Xocavənd rayonları), Ağdərə, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarında tam, Ağdam və Füzuli rayonlarının isə işğal altında olan hissəsində bələdiyyə seçkilərinin keçirilməsinin qeyri-mümkün olduğunu və buna görə də,

a) Azərbaycan Respublikasının suveren hüquqlarının və işğal nəticəsində məcburi köçkün düşmüş Azərbaycan vətəndaşlarının digər hüquqları ilə yanaşı, yerli özünüidarəetmə orqanlarının yaradılmasında iştirak hüququnun və bu orqanlara seçmək və seçilmək hüququnun kobud şəkildə pozulduğunu,

b) habelə, Ermənistan – Azərbaycan münaqişəsi nəticəsində öz tarixi torpaqlarından qaçqın düşmüş insanların aktiv və passiv seçki hüququnun təmin olunduğunu BMT-nin, ATƏT-in, AŞ-nın və digər beynəlxalq təşkilatların ***nəzərinə çatdıraraq;***

seçkilər zamanı aşkarlığın təmin olunması üçün bütün tədbirlərin görülməsi, qanuna müvafiq surətdə mövcud seçki məntəqələrinin 10 faizindən çoxunda veb-kameraların tətbiqi və müşahidəçilərin sərbəst fəaliyyəti üçün şəraitin yaradılması nəticəsində, səsvermə günü, 54 beynəlxalq və 50.000-dən çox yerli müşahidəçinin, 28 informasiya agentliyi, 12 xarici KİV, 18 teleradio şirkəti, 39 yerli qəzet və jurnal nümayəndələrinin seçkilərin gedişini izlədiyini ***vurğulayaraq;***

səsvermənin gedişini izləmiş həm yerli, həm də beynəlxalq müşahidəçilərin ümumən seçkiləri müsbət qiymətləndirdiklərini ***təqdir edərək;***

həm ölkə, həm də beynəlxalq ictimaiyyətin seçkinin nəticələri ilə dərhal tanış olması üçün səsvermə başa çatdıqdan sonra məntəqələr üzrə ilkin nəticələrin Mərkəzi Seçki Komissiyasının nəzdindəki “Seçkilər” İnformasiya Mərkəzi tərəfindən 24 saat ərzində Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsini, yekun protokollarının və digər seçki sənədlərinin məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına qanunla müəyyənləşdirilmiş müddətdə çatdırılmasını ***nəzərə alaraq;***

Mərkəzi Seçki Komissiyasının dairə seçki komissiyalarından bələdiyyələr üzrə yekun protokollarını və digər seçki sənədlərini qanunla müəyyən olunmuş qaydada və müddətdə qəbul edib yoxladığını ***qeyd edərək;***

qeydə alınmış qanun pozuntuları ilə əlaqədar səsvermə günü və ondan sonra Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərin də qanunla müəyyən olunmuş qaydada və müddətdə araşdırıldığını və araşdırma nəticəsində

a) müraciətlərin, protokol və ona əlavə edilmiş sənədlərdəki məlumatların bir qisminin bir sıra seçki məntəqələri, o cümlədən bələdiyyələr üzrə seçkilərin nəticələrinin yenidən qiymətləndirilməsinə və etibarsız sayılmasına əsas yaratdığnı,

b) özündə cinayət xarakterli məlumatları əks etdirən müraciətlərin isə araşdırılmasının müvafiq prokurorluq orqanlarının səlahiyyətinə aid olduğunun müəyyən edildiyini ***xüsusilə vurğulayaraq;***

bir qisim bələdiyyələrdə seçki günü və səsvermənin nəticələrinin rəsmiləşdirilməsi ilə əlaqədar seçkilərin nəticələrinə təsir edən ciddi qanun pozuntularına və kobud səhvlərə yol verilməsini, bəzi hallarda müvafiq məntəqə seçki komissiyaları tərəfindən seçicilərin səsvermə hüquqlarının məhdudlaşdırılmasını və bu cür kobud qanun pozuntularının aradan qaldırılması üçün müvafiq məntəqə və dairə seçki komissiyalarının sədrləri və müvafiq komissiyalar tərəfindən lazımi tədbirlərin görülməməsini ***təəssüflə qeyd edərək;***

50 saylı Qobustan – Xızı – Quba, 72 saylı Yardımlı – Masallı seçki dairələri dairə seçki komissiyaları sədrlərinin, 70 saylı Masallı şəhər və 80 saylı İmişli – Beyləqan seçki dairələri dairə seçki komissiyalarının əvvəlki seçki mərhələləri də daxil olmaqla səsvermə günü və ondan sonra üzərinə düşən vəzifələrin öhdəsindən lazımınca gələ bilmədiklərini ***narahatlıqla ifadə edərək;***

Seçki Məcəlləsinin 240.2-ci maddəsinə müvafiq olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən 9 bələdiyyə üzrə səsvermənin nəticələri etibarsız hesab edildikdən sonra Azərbaycan Respublikasının seçki keçirilən hissəsində 1.709 bələdiyyənin tam formalaşması nəticəsində 15.591 nəfərin bələdiyyə üzvü seçildiyini ***əminliklə ifadə edərək;***

seçkilərin nəticələrinin obyektiv surətdə qiymətləndirilməsi və qanuna müvafiq tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 23.2-ci, 25-ci, 28.2-ci, 28.4-cü, 107.4-cü, 112.9-cu, 239-cu, 240-cı və 241-ci maddələrini ***rəhbər tutaraq***

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasında 2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərinin baş tutması, bu seçkilərin ümumən Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun keçirilməsi nəzərə alınsın.

2. Bəzi seçki məntəqələri və bələdiyyələr üzrə seçkilərin etibarsız hesab edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq qərarları nəzərə alınaraq, ümumilikdə 33 seçki məntəqəsindəki səsvermənin nəticələri və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinə əsasən 9 bələdiyyəyə seçkilər etibarsız hesab edilmiş sayılsın.

3. Bələdiyyələr üzrə seçkilərin yekunları müəyyənləşdirilərkən müvafiq dairə seçki komissiyaları tərəfindən dairə seçki komissiyalarının protokollarına bu və ya digər səbəbdən tam daxil edilməmiş məntəqə seçki komissiyaları protokollarının nəticələri nəzərə alınaraq, Mərkəzi Seçki Komissiyasının seçkilərin ümumi yekunlarına dair protokoluna daxil edilsin (siyahı əlavə olunur, 1 saylı əlavə).

4. Qüsursuz məntəqə seçki komissiyalarının protokolları ümumiləşdirilərkən müvafiq dairə seçki komissiyaları tərəfindən tərtibat xətalarına yol verildiyindən, həmin seçki məntəqələri üzrə nəticələr nəzərə alınaraq, Mərkəzi Seçki Komissiyasının seçkilərin ümumi yekunlarına dair protokoluna daxil edilsin (siyahı əlavə olunur, 2 saylı əlavə).

5. Seçkilərin ümumi yekunları rəsmi təsdiq edilmiş bütün 1.709 bələdiyyə üzrə bələdiyyə üzvlərinin tam tərkibdə formalaşması nəzərə alınsın.

6. Bələdiyyələr üzrə seçilmiş üzvlərin siyahısı elan edilsin.

7. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyasının müvafiq qərarları ilə səsvermənin nəticələri etibarsız sayılmış 18 seçki məntəqəsi məntəqə seçki komissiyalarının buraxılması nəzərə alınsın (siyahı əlavə olunur, 3 saylı əlavə).

8. Seçkilərin hazırlanması və keçirilməsi zamanı öz fəaliyyətində yol verdiyi ciddi nöqsanlara görə 72 saylı Yardımlı – Masallı seçki dairəsinin dairə seçki komissiyası sədrinin tutduğu vəzifəyə uyğunsuzluğu müəyyən edilsin. Eyni səbəbdən 70 saylı Masallı şəhər, 80 saylı İmişli – Beyləqan seçki dairələri dairə seçki komissiyalarının buraxılması, 50 saylı

Qobustan – Xızı – Quba seçki dairəsinin dairə seçki komissiyası sədrinin tutduğu vəzifəyə uyğunsuzluğunun Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilməsi nəzərə alınsın.

9. Seçkilərlə əlaqədar olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş qaydada araşdırılmış materialların bir qismi aidiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilsin (siyahı əlavə olunur, 4 saylı əlavə).

10. Bələdiyyə seçkilərinin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının yekun protokolu tərtib edilsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |